# Elmi Jurnallar




**Elmi Xəbərlər (Humanitar elmlər seriyası ISSN 2617-8036)** jurnalında humanitar elmlərin müxtəlif sahələrinə, o cümlədən dilçilik, ədəbiyyatşünaslıq, tarix, şərqşünaslıq, pedoqogika, sosiologiya və psixologiya sahələrinə aid yüksək keyfiyyətli, yeni nəticələri özündə saxlayan rəydən keçirilmiş məqalələr çap edilir. Jurnalın məqsədi humanitar sahənin öyrənilməsində yeni elmi istiqamətləri təqdim etmək, tədqiqatçılar arasında elmi məlumat mübadiləsi aparmaq üçün açıq platforma yaratmaqdır. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən elmi nəşrlərin siyahısına daxildir. Jurnal ildə iki dəfə çap olunur, azərbaycan, ingilis, rus və türk dillərində məqalələr qəbul edilir.




**Elmi Xəbərlər (Riyaziyyat və Təbiət elmləri seriyası ISSN 2617-8052)** jurnalı riyaziyyat və təbiət elmlərinin geniş spektrini əhatə edən elmi jurnaldır. Jurnalda riyaziyyat və təbiət elmləri sahəsində orijinal, ciddi rəyləşdirilmiş, nəzəri və tətbiqi əhəmiyyətə malik, yeni nəticələri özündə saxlayan məqalələr çap edilir. Jurnalın məqsədi alim və tədqiqatçılar üçün təbiət elmlərinin müxtəlif sahələrinə aid yeni nəticələri və istiqamətləri müzakirə etmək üçün yeni imkanlar təklif etməkdir. Jurnal ildə iki dəfə çap olunur, azərbaycan, ingilis, rus və türk dillərində məqalələr qəbul edilir.